New Baku Post

# "CƏNAB KİMDİR? – O, TAYLORDUR"...

23. 05. 2012

**Hamlet İsaxanlı**



Böyük şairimiz Səməd Vurğun 1948-ci ildə Polşanın Vrotslav şəhərində keçirilən "Sülhü müdafiə edən mədəniyyət xadimlərinin Ümumdünya Konqresi"ndə (başqa adla - "İntellektualların Beynəlxalq Konqresi"ndə) iştirak etmiş, qayıtdıqdan sonra "Zəncinin arzuları" poemasını yazmışdı. O, kapitalizmin əksər hallarda danılmaz olan nöqsanlarını tənqid etmək və kommunizmi tərənnüm etməklə yanaşı, böyük istedadlara xas olan yüksək sənətkarlıq nümayiş etdirmiş, oxunaqlı, yadda qalan və həqiqətə yaxın siyasi-poetik mənzərə yarada bilmişdi. Əsərin baş qəhrəmanı amerikalı zənci rəssam tribunadan ABŞ-da qaraların bərabərhüquqlu vətəndaş olmaq istəyini dilə gətirir, eyni zamanda, hərarətlə sevdiyi vətəni Amerikanın gözəlliyini də vəsf edir (o dövrdə Amerikanı tərifləyən az idi).

Vurğun "sağındakı bir nəfəri"-poemasının digər surətini təqdim edir: "Qurd kimi", "ilan kimi", "qaraqabaq, yerəbaxan, gözü gömgöy, rəngi kürən" adamın, "o fitnələr övladının hiylə yağır sifətindən". O, "kinayəli baxışlarla diş qıcayır bir iblis tək". Nəhayət, "Cənab kimdir? – O, Teylerdir: şlyapalı bir iblisdir" deyə, onun adını çəkir.

Şair yazılı hesabatında da onu unutmur: "İngiltərədən gəlmiş cənab Teyler, bu mürtəce və ikiüzlü siyasətçi bugünkü Amerikanın istilaçılıq planlarını da müdafiə məqsədilə: "Amerika demokratiyasını faşizmə bənzətməyə yol vermək olmaz" dedi, göstərdi ki, guya Marşall planı faşizmdən zərər çəkmiş ölkələrə Amerikanın böyük yardımı deməkdir".

Bəs cənab Taylor kimdir?

S. Vurğunun yaşıdı olan məşhur Britaniya tarixçisi və ictimai xadim, həmçinin publisist, populyar televiziya proqramları müəllifi Alan John Percivale Taylor (1906-1990) əslində siyasi baxışlarına görə S. Vurğundan az fərqlənirdi. O, socialist, anti-imperialist, anti-Amerikan ruhlu fəal bir insan idi (anası Kominternin üzvü idi). SSRİ-ni, onun xarici siyasətini bəyənirdi, Britaniyanı ABŞ ilə deyil, Sovetlərlə ittifaq qurmağa çağırırdı. Lenin onun sevimli qəhrəmanı idi.

Mümkündür ki, S. Vurğun Tayloru yaxşı tanımır, onun məslək və ideyalarını bilmirmiş.

Bəs A.J.P. Taylor nə üçün S. Vurğunun qəzəbinə düçar olmuşdu?

Vrotslav Konqresi SSRİ-nin təşəbbüsü ilə, kapitalizmi atəşə tutmaq və socialist meylli elm və sənət adamlarını bu ideya ətrafında səfərbər etmək məqsədilə təşkil edilmişdi. Sovetlərdən gedən böyük nümayəndə heyətinə yazıçı Aleksandr Fadeyev başçılıq edirdi. O, öz plenar məruzəsində kapitalizmə loyal olan yazıçıları kəskin və kobudcasına tənqid etmiş, onları "çaqqal" və "kaftar" (goreşən) adlandırmışdı (ABŞ Nümayəndələr Palatası nəzdində dünya communist hərəkatını izləmək və ABŞ-ı müdafiə emaq məqsədilə yaradılmış xüsusi komitənin 1 aprel 1951-ci il tarixli hesabatından).

Taylor antistalinçi idi və onun S.Vurğundan əsas fərqi də bu idi. Taylor stalinçi Vrotslav konqresini pozmağı, sabotaj etməyi qarşısına məqsəd qoydu. Onun tolerantlığı və yüksək dairələrdən fərqli düşünmək hüququnu müdafiə edən antistalinçi çıxışı böyük rəğbət gördü. Konqresin stalinçi planını müəyyən mənada iflasa uğradan bu çıxış S. Vurğun, A. Fadeyev və onların tərəfdarlarını, yəqin ki, çox əsəbiləşdirməli idi. "Zəncinin arzuları" poemasında Taylorun kəskin tənqid atəşinə tutulmasının arxasında dayanan səbəb bu idi.